## YUBİLEY

### Dosent
### ƏBDÜRRƏHMANOV MİRƏLİ İBRAHİM OĞLU
(anadan olmasının 80 illiyi münasibətilə)



Azərbaycan Dövlət Neft Akademiyasının energetika fakultəsinin « Elektrotermiki qurğular və yüksək gərginliklər texnikası» kafedrasının dosenti, texnika elmləri namizədi Mirəli İbrahim oğlu Əbdürrəhmanovun 80 yaşı tamam olur.

Şəki pedaqoji məktəbini bitirdikdən sonra M.İ.Əbdürrəhmanov Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq ordu sıralarına çağırılmışdır. 1941-ci ildən 1945-ci ilin oktyabr ayına qədər ordu sıralarında xidmət etmişdir. Vətən Müharibəsi iştrakçısıdır.

1945-ci ilin oktyabırında ordu sıralarından tərxıs olunduqdan sonra 1946-cı ılın ıyununa qədər Şəkidə 1 saylı məktəbdə müəllimlik etmişdir.

1946-ci ildə Azərbaycan Sənaye İnstitutunun energetika fakultəsinə daxil olmuş 1951-ci ildə institutu «Elektrik şəbəkələri və stansiyaları» ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir və Elmi Şuranın qərarı ilə institutda saxlanılmışdır.

1951-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Energetika İnstitutunda Ç.M.Cuvarlının rəhbərliyi ilə yeni yaradılan «Yüksək gərginliklər texnikası» laboratoriyasına elmi işçi qəbul olunmuşdur və amillərin tədqiqi ilə məşğul olmuşdur.

1958-ci ildə akademik Ç.M.Cuvarlının rəhbərliyi ilə « Neytralı izolə olunmuş 6-35 kV-luq birfazlı qövslə yerə qapanma zamanı yaranan ifrat gərginliklərin təhlili» mövzusunda dissertasiya işini müqafilə etmiş və ona texnika elmləri namizədi alimlik dərəcəsi verilmişdir. İşdə ifrat gərginliklərin yaranmasının fiziki mexanizmi əsaslandırılmış, şəbəkənin parametrlərinin və enerji rejiminin ifrat gərginliklərin maksimum qiymətinə olan təsiri araşdırılmışdır.

M.İ.Əbdürrəhmanov 1964-cü ildən Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakultəsinin «Elektrik maşın və aparatları» kafedrasına dosent vəzifəsinə qəbul edilmişdir. Elektrik aparatları ixtisasında «Yüksək gərginlikli kommutasiya aparatları» fənnini tədris etmiş və həmin istiqamətdə elmi iş aparmışdır.

1970-ci ildən dosent M.İ.Əbdürrəhmanov elmi-pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Neft Akademiyasının« Elektrotermiki qurğular və yüksək gərginliklər texnikası» kafedrasında davam etdirir.Kafedrada «Elektrotexniki materiallar» «Yüksək gərginliklər texnikası» fənlərini tədris edir.

1994-cu ildən akademik Ç.M.Cuvarlının təşəbbüsü ilə yaradılan «Yüksək gərginliklər texnikası və fizikası» ixtisasının təşkilində fəal iştirak etmişdir. Bu ixtisas üzrə « İfrat gərginliklər və onlardan mühafizə» kursunu tədris edir və həmin istiqamətdə elmi iş aparır.

Dosent M.İ.Əbdürrəhmanov 40-a qədər elmi məqalə, bir neçə metodik vəsait nəşr etdirmiş, 6 namizədlik dissertasiyasının rəsmi opponenti olmuşdur.

Dosent M.İ.Əbdürrəhmanovu anadan olmasının 80 illiyi münasibəti ilə təbrik edir, ona möhkəm can sağlığı və elmi-pedoqoji fəaliyyərtində müvəffəqiyyətlər arzulayırıq.

Redaksiya heyəti